AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ

# QƏRAR

№ 7/30

Bakı şəhəri 20 aprel 2016-cı il

"Akademik Ziya Bünyadov qiraətləri"
adlı tədbirlər haqqında

Azərbaycan şərqşünaslıq elminin inkişafında və Yaxın Şərq xalqlarının orta əsrlər tarixinin tədqiqində akademik Ziya Bünyadovun böyük xidmətləri olmuşdur. Görkəmli alimin fundamental monoqrafiyaları, önəmli tarixi mənbələrin ərəb və Osmanlı dillərindən tərcümələri, müxtəlif mövzularda qələmə aldığı sanballı məqalələri Azərbaycan elminin qızıl fonduna daxildir. Azərbaycanın xilafət dövrü tarixi, Babək üsyanı, Azərbaycan Atabəylər dövləti və Səlcuq imperiyası ilə münasibətləri, Xarəzmşahlar dövləti və monqol istilaları dövrü Ziya Bünyadovun əsərlərində öz əksini tapmışdır.

AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda mütəmadi olaraq Ziya Bünyadovun xatirəsinə həsr olunmuş elmi tədbirlər keçirilmiş və Orta əsrlər Şərq tarixi silsiləsindən toplular nəşr edilmişdir. 2013-cü ildən isə qeyd edilən tədbirlər çərçivəsində təşkil edilən beynəlxalq elmi konfransın qətnaməsində dünyanın bir sıra ölkələrindən olan iştirakçılar yekdilliklə böyük elmi əhəmiyyətə malik olan akademik Ziya Bünyadovun elmi yaradıcılığına həsr edilən "Akademik Ziya Bünyadov qiraətləri"nin Bakıda mütamadi (2 ildə bir dəfə) keçirilməsini tövsiyə etmişlər.

Qeyd olunanlarla bağlı AMEA-nın İctimai Elmlər Bölməsinin vəsatətini nəzərə alaraq, Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR:**

1. AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda "Akademik Ziya Bünyadov qiraətləri" adlı (2 ildə bir dəfə) beynəlxalq elmi konfrans keçirilsin.
2. AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Gövhər Baxşəliyevaya tapşırılsın ki, "Akademik Ziya

Bünyadov qiraətləri" adlı beynəlxalq elmi konfransın təşkil edilməsindən irəli gələn məsələləri həll etsin.

3. Qərarın icrasına nəzarət AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyliyə həvalə edilsin.

AMEA-nın prezidenti akademik Akif Əlizadə

AMEA-nın akademik-katibi akademik Rasim Əliquliyev

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI RƏYASƏT HEYƏTİ PROTOKOL ŞÖBƏSİ MƏRKƏZİ APARAT